# Qlobal düzənin formalaşmasında fəal mövqe

*Beynəlxalq forumlar Azərbaycanı daha yaxşı tanımağa, ölkənin nəbzini duymağa imkan yaradır*




**Bakıda ADA Universitetində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda 7-ci ADA Siyasi Forumu keçirilib. ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə baş tutan Foruma 44 ölkədən 80-dən çox beynəlxalq ekspert, beyin mərkəzlərinin nümayəndələri qatılıb.**

ADA Universitetinin təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq tədbirlər artıq ənənə halını alıb və bu cür toplantılar müxtəlif aktual məsələlərin müzakirəsi, o cümlədən də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlərdə ölkə başçısının iştirakı isə regionda və dünyada gedən proseslərə Azərbaycanın mövqeyinin təqdimatı baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə 44 günlük İkinci Qarabağ müharibəsindən sonra keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin bərpası, regionda sülhün və təhlükəsizliyin təmin edilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması istiqamətində atılan addımların təbliğinə geniş yer verilir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu konfrans və forumların əhatə dairəsinin genişlənməsi, iştirakçı sayının artması həmin tədbirlərə beynəlxalq səviyyədə marağı göstərir.

(davamı 7-ci səhifədə)




# Qlobal düzənin formalaşmasında fəal mövqe

## Beynəlxalq forumlar Azərbaycanı daha yaxşı tanımağa, ölkənin nəbzini duymağa imkan yaradır

(əvvəli 1-ci səhifədə)

2023-cü il dekabrın 6-da ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" mövzusuna həsr olunmuş beynəlxalq forum da bu baxımdan xüsusi diqqət çəkirdi. Forumda çıxış edən Prezident İlham Əliyev 30 illik işğal dövrünün reallıqlarından, tarixi Zəfərimizi şərtləndirən amillərdən, işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuqdan və soydaşlarımızın bu torpaqlara qayıdışından, həmçinin ölkəmizin Ermənistana təklif etdiyi sülh müqaviləsinin imzalanması prosesinin işğalçı dövlət tərəfindən uzadılmasından bəhs edərək Azərbaycan maraqlarını və mövqeyini nümayiş etdirdi.

"Yeni dünya nizamına doğru" mövzusunda keçirilən 7-ci ADA Siyasi Forumunda da dövlət başçısı tarixi Zəfərimizin reallıqlarından, sülh müqaviləsinin imzalanması prosesinin uzanması səbəblərindən, dünyanın ikili standartlara əsaslanan siyasətinin yaratdığı problemlərdən geniş bəhs edib və ayrı-ayrı ölkələrin fəaliyyətinin vəziyyəti gərginləşdirməyə xidmət etdiyini vurğulayıb. Bildirilib ki, regionda uzunmüddətli əməkdaşlığa gəldikdə, əgər xəritəyə baxsaq, Azərbaycan burada əsas yer tutur. Bəziləri Azərbaycanı nəinki bu prosesdən, o cümlədən ümumiyyətlə, prosesdən ayırmaq və Cənubi Qafqazda ayırıcı xətləri çəkmək cəhdi göstərir. Lakin bu, birmənalı olaraq uğursuz olacaq. Ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik, separatçılığın kökünü kəsdik və sərhədlərimizin toxunulmazlığını təmin etdik. "Bizim üçün bu məsələ bitmişdir. Ancaq bu o demək deyil ki, biz potensial təhlükələri nəzərə almayacağıq", - deyən dövlət başçısı əlavə edib ki, biz özümüzü müdafiə etməyə və Ermənistanı belə bir fikrə gəldikdə, dərhal cəzalandırmağa hər an hazır olmalıyıq.

Bu tədbir Azərbaycanın yeni qlobal düzənin formalaşmasında fəal iştirak edən subyekt kimi mövqeyini konseptual və simvolik şəkildə ortaya qoyan siyasi akt sayıla bilər. Forum siyasətçiləri, strateqləri, diplomatları və akademikləri bir araya gətirərək mürəkkəb tarixi keçmişə malik regionların, o cümlədən Cənubi Qafqazın artıq məsuliyyət, seçim və liderlik zonalarına çevrildiyini nümayiş etdirdi. Azərbaycan Prezidenti İlham Əliyevin forumda çıxışı bölgə ölkələrinə, həm də beynəlxalq ictimaiyyətə ünvanlanan ciddi mesajlar idi. Səsləndirilən fikirlər, Ermənistanla normallaşma prosesinin konturlarını, mümkün sülh sazişinin şərtlərini və regionda gələcək əməkdaşlıq imkanlarını aydın şəkildə ortaya qoydu. Bu çıxış həm də Azərbaycanın geosiyasi baxışının, regional transformasiya layihələrinin və təhlükəsizlik arxitekturasının konturlarını müəyyənləşdirir. ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda çıxışı zamanı Prezident İlham Əliyevin bəhs etdiyi Cənubi Qafqazı "bölmək" cəhdləri əslində geosiyasi ikili standartların təzahürüdür. Bu standartlara görə, bir dövlətin suverenliyi dəyişkən parametr kimi qəbul edilir, digəri isə "toxunulmaz konstant" kimi nəzərdən keçirilir.

Azərbaycanın əlverişli coğrafi mövqeyi, Avropa ilə Asiyanı birləşdirən mühüm siyasi, iqtisadi dəhliz rolunu oynaması bir çox ölkələrin diqqətini cəlb edir. Bundan əlavə, Azərbaycanın son illərdə nail olduğu inkişaf göstəriciləri, respublikamızın regionda lider dövlətə çevrilməsi, hər bir sahədə müstəqil siyasət yürütməsi və enerji siyasətində Avropa məkanı ilə əməkdaşlığa xüsusi önəm verməsi də ölkəmizin tərəfdaşlıq qismində müsbət beynəlxalq imicini formalaşdıran mühüm faktorlardır. Malik olduğu zəngin karbohidrogen ehtiyatları sayəsində Avropanın enerji təhlükəsizliyinin təminində əvəzolunmaz mövqeyə sahib olan Azərbaycanda yaradılan əlverişli biznes mühiti və geniş iqtisadi inkişaf potensialı da respublikamızın tərəfdaş ölkələrlə daha sıx əməkdaşlığına imkan verir.

Prezident İlham Əliyev vurğuladı ki, bu gün Azərbaycan Avrasiya konfiqurasiyasında əsas mövqe tutur. Bu, sadəcə ritorika deyil. Xəzər dənizi ilə Qara dəniz, Rusiya ilə İran, Türkiyə ilə Mərkəzi Asiya arasında yerləşən Azərbaycanın coğrafiyası artıq çoxdan geosiyasətə çevrilib. Son iyirmi ildə Azərbaycan regionun ən mühüm enerji və logistika mərkəzinə çevrilib. Belə ki, Cənub Qaz Dəhlizi, TANAP və TAP layihələri daxil olmaqla, Xəzər ilə Cənubi Avropanı birləşdirir və Avropa İttifaqının Rusiya qazından asılılığını azaldır. Xəzər sahilində yerləşən




Bakı limanı Çin ilə Avropa arasında yerləşən ən böyük limandır. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi və Trans-Xəzər marşrutu Azərbaycandan keçərək Hindistanı Avropa ilə birləşdirir. Rəsmi Bakı Macarıstan, İtaliya, Gürcüstan, Qazaxıstan, Özbəkistan və Rumıniya daxil olmaqla, çoxsaylı dövlətlərlə strateji sazişlər imzalayaraq çoxsəviyyəli qarşılıqlı asılılıq şəbəkəsi yaradıb.

Avrasiyanın mühüm geostrateji mərkəzlərindən biri, Cənubi Qafqazın lider dövləti kimi çıxış edən Azərbaycan çoxşaxəli və balanslaşdırılmış xarici siyasət kursu ilə regional və beynəlxalq miqyasda əməkdaşlıq, təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirir. Eyni zamanda regional işbirliyi formatlarının yaranmasında Azərbaycanın yeri və rolu müstəsna əhəmiyyət kəsb edir. Ölkəmiz hazırda regionda sabitləşdirici aktor kimi çıxış edir. Azərbaycan heç bir beynəlxalq qurumdan, milli dövlətdən asılı olmayan müstəqil siyasət kursuna malikdir. Respublikamız xarici siyasi əlaqələrini, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir, müxtəlif sahələri əhatə edən əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipi əsasında reallaşdırır. İkitərəfli və çoxşaxəli münasibətlərin əsasında duran strateji amil məhz ölkəmizin milli maraqlarıdır. Azərbaycan reallaşdırılan bütün strateji əhəmiyyətli layihələrdə öz müstəqil siyasi iradəsi əsasında, milli mənafelərə müvafiq olaraq təmsil olunur və ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlər, qurumlar mütləq mənada ölkəmizin maraqlarını nəzərə alırlar.

Qarabağın azad olunmasından sonra Azərbaycanın münaqişədən sonrakı yanaşması nümunə modeldir. Bu yanaşma sadəcə ərazilərin bərpası ilə yekunlaşmır, həm də "pozitiv sülh" konsepsiyasına əsaslanır. Beynəlxalq ekspertlərin azad edilmiş əraziləri ziyarət etmələri və dağıntıların real miqyasını görmələri həm humanitar, həm də diplomatik mesajdır. ADA Universitetində keçirilən forum bu xəttin davamı oldu, Azərbaycanı regionda sülhün institusional təminatçısı kimi təqdim etdi. Ermənistandan fərqli olaraq, hansı ki, impulsları xaricdən alır, Azərbaycan suverenlik, iqtisadiyyat və nəqliyyat üzərində qurulmuş sülh modeli təklif edir. Prezident İlham Əliyevin forumda səsləndirdiyi hər bir bəyanat strateji məna daşıyır. Azərbaycanın Ermənistan qarşısında irəli sürdüyü əsas tələblər son dərəcə açıq və beynəlxalq hüquqa əsaslanır: Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tanınması, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarına son verilməsi və real siyasi iradənin nümayiş etdirilməsi. Prezidentin bu çıxışı həm də Cənubi Qafqazda yaranmaqda olan yeni geosiyasi arxitekturanın konturlarını göstərir. Əgər Ermənistan rasionallıq göstərərsə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında enerji, ticarət, nəqliyyat və ekoloji təhlükəsizlik sahələrində əməkdaşlıq qurula bilər. Bu, yalnız üç ölkənin deyil, həm də Avropa İttifaqı, Mərkəzi Asiya və Çin arasında uzanan geniş Avrasiya platformasının bir hissəsi ola bilər.

"Bir neçə dəfə belə tədbirlər keçirilib. Müxtəlif ölkələrdən gəlmiş ekspertlər Azərbaycana səfər etdilər və qlobal gündəlikdə duran məsələləri müzakirə etdilər. Bütün bu səfərlər Azərbaycanı daha yaxşı tanımağa, ölkənin nəbzini duymağa imkan yaradır". Prezident İlham Əliyev beynəlxalq forumda bu fikirləri bildirərək əlavə edib ki, Azərbaycanın tarixi ərazilərinin azad edilməsindən sonra ekspertlərin həmin ərazilərə səfəri ölkəmizin, münaqişənin tarixi haqqında, həmçinin Azərbaycanın bugünkü reallıqları barədə daha çox məlumat verir.

ADA Universitetində keçirilən forum bir daha göstərdi ki, Azərbaycan qlobal mövzuları öz ərazisində müzakirə etməkdən çəkinmir. Bu isə özünəinamın göstəricisidir.

**Mustafa KAMAL,**
**"Respublika".**